1_Layout 1 12.01.2023 18:22 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 1 (640)

16 yanvar 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## "HEYDƏR ƏLİYEV İLİ" BAŞLADI

**"Azərbaycan" qəzetinin müxbiri Rəhman Salmanlının müəllifi olduğu "Heydər Əliyev İli" başladı" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**



Prezident İlham Əliyevin 28 noyabr 2022-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Xatırladaq ki, 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Azərbaycan xalqının Ümummilli Lideri - dünyaşöhrətli siyasi xadim Heydər Əliyev xalqımızın yaddaşında daim müdrik lider, ideoloq, müasir müstəqil Azərbaycanın qurucusu kimi yaşayır. Ulu Öndərin uzaqgörən siyasəti sayəsində Azərbaycan hələ 1969-cu ildən böyük nailiyyətlərə imza atmışdı. Ötən əsrin 90-cı illərində isə Ulu Öndər ölkəmizi parçalamağa, süqut etdirməyə çalışan xarici güc mərkəzlərini, daxili xəyanətkarları zərərsizləşdirərək Azərbaycanın müstəqilliyini qorumuş və inkişaf yoluna çıxarmışdı.

Sərəncamda deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

Ümummilli Liderin 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gəlişi ilə SSRİ daxilində ölkəmizə qənim kəsilən dairələrin hücumları dəf edilmişdi. Azərbaycan ötən əsrin 60-cı illərində sosial-iqtisadi inkişaf tempinə görə müttəfiq respublikalar arasında sonuncu yerlərdən birini tutmuşdu. Ölkənin sosial-iqtisadi tənəzzülü xalqın mənəvi-psixoloji durumuna da mənfi təsir göstərmişdi. Ulu Öndərin diqqəti və qayğısı, həyata keçirdiyi islahatlar sayəsində Azərbaycan ittifaq daxilində inkişaf edən ən vacib ölkələrdən birinə çevrilmişdi. Həmin dövrdə Ulu Öndərin ölkəmizin hərbi potensialının artırılması ilə bağlı verdiyi qərarların əhəmiyyəti isə 44 günlük Vətən müharibəsində qazandığımız zəfərdə bir daha aydınlaşdı. 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması milli hərbi kadrların yetişdirilməsi baxımından vacib əhəmiyyət kəsb etmişdi.

Beləliklə, Ümummilli Liderin 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri olduğu dövrdə gördüyü işlər nəticəsində respublikamız SSRİ-nin ən strateji ölkələrindən birinə çevrildi. Amma ölkənin uğurlarını həzm edə bilməyənlər Ulu Öndər Heydər Əliyev SSRİ rəhbərliyindən istefa verdikdən sonra Azərbaycana qarşı böyük haqsızlıqlar etməyə başladılar. Bacarıqsız insanların respublikaya rəhbər vəzifələrə gətirilməsi ilə SSRİ-nin başında duranların xalqımıza yönələn cinayətləri davamlı şəkil aldı. Dövlətimiz bir daha ağır günlərini yaşadı. Yalnız 1993-cü ildə Ulu Öndərin xalqın tələbi ilə prezident seçilməsindən sonra ölkəmiz dirçəlməyə başladı.

Bu gün dünyanın nüfuzlu təşkilatı - Qoşulmama Hərəkatına uğurla rəhbərlik edən Azərbaycan həm də Cənubi Qafqazın lider dövləti kimi tanınır. İndi Azərbaycanda nümunəvi xalq-dövlət birliyi var, dövlətimizin siyasi və hərbi gücü, iqtisadi imkanları gündən-günə artır. Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kurs uğurla davam və inkişaf etdirilir, müxtəlif sahələrdə islahatlar dərinləşir. Azərbaycan 30 ilə yaxın Ermənistan silahlı birləşmələrinin işğalı altındakı torpaqlarını azad edib. "Şuşa İli"ndə Qarabağın incisi olan gözəl Şuşada mühüm və vacib tədbirlər keçirilib. 2023-cü ildə "Heydər Əliyev İli" çərçivəsində isə Qarabağa qayıdışın toy-bayram büsatlı günlərinin, biri digərindən maraqlı olan silsilə tədbirlərin şahidi olacağıq.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Bu gün Ulu Öndər Heydər Əliyevin ruhu şaddır, Qarabağ işğaldan azad edilib. Üçrəngli Azərbaycan bayrağı Şuşada, Ağdamda, Füzulidə, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Laçında, ümumilikdə, işğaldan azad edilmiş bütün torpaqlarımızda dalğalanır.

Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Nəticədə Azərbaycan güclü xalq-dövlət birliyi olan firavan dövlətdən zəfər qazanan, torpaqlarını işğaldan azad edən, mühüm geostrateji mövqeyə sahib olan ölkəyə çevrilib. Görünən odur ki, xalqımızın fəxri və qüruru olan, dünyaşöhrətli siyasətçi Heydər Əliyevin yeni ilin ilk günlərindən başlayan 100 illik yubiley tədbirləri nəinki respublikamızda, bir çox xarici ölkədə, həmçinin diaspor təşkilatlarında, səfirliklərimizdə, bir sözlə, dünya azərbaycanlıları tərəfindən böyük sevgi və təntənə ilə qeyd ediləcəkdir.

## Daxili işlər naziri əməliyyat müşavirəsi keçirib

**Yanvarın 11-də Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə DİN-in Daxili Qoşunlarının 2022-ci ildəki xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**









Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf və tərəqqi strategiyası nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, hərbi qulluqçuların iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini cənab Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edən nazir, onu da vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan və polis əməkdaşlarından xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.

Sonra Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov qoşunların qarşısında duran vəzifələri qeyd edib, tapşırıq və tövsiyələrini verib. Eyni zamanda əmin olduğunu bildirib ki, şəxsi heyət onlara göstərilən diqqət və qayğıya sabitliyin, əmin-amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

**DİN-in Mətbuat xidməti**

2 ƏSGƏR 16 yanvar 2023-cü il

# DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB




Yanvarın 10-da Daxili Qoşunların Baş İdarəsində “2022-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında” Hərbi Şuranın iclası keçirilib.

İclasda giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov diqqətə çatdırıb ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti ötən il ərzində təhlükəsizliyin təmin olunması, mühüm obyektlərin mühafizəsi, eləcə də digər vəzifələri layiqincə və keyfiyyətlə icra edib. Xüsusən işğaldan azad edilmiş ərazilər üzrə müəyyən edilmiş tapşırıqlar tam həcmdə həyata keçirilib.

2022-ci ilin xidməti-döyüş fəaliyyətinin yekunları barədə Daxili qoşunlar komandanının 1-ci müavini - qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə edib.

Qeyd olunub ki, Daxili Qoşunlar tərəfindən işğaldan azad edilmiş ərazilərdə yaradılan stasionar postlarda və ayrı-ayrı marşrutlar üzrə xidmət təşkil edilib, mühüm obyektlərin mühafizəsi təmin olunub, xidməti ərazilərin monitorinqi keçirilərək əməliyyat məlumatları fasiləsiz toplanılıb və təhlil aparılıb, aidiyyəti orqanlarla zəruri qarşılıqlı əlaqələr yaradılıb.

İl ərzində qoşunlar “Texnofest Azərbaycan” Aerokosmik və Texnologiya Festivalının, “Formula-1 Azərbaycan Qran-Pri” yarışının və digər mühüm beynəlxalq səviyyəli tədbirlərin, futbol oyunlarının keçirilməsi zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasına cəlb olunub. Bu tədbirlər zamanı, həmçinin işğaldan azad olunmuş ərazilərdə hərbi hissələrin istehkamçı yarımqrupları tərəfindən də onlara həvalə edilmiş aidiyyəti xidməti-döyüş tapşırıqları uğurla yerinə yetirilib.

2022-ci il ərzində qoşunlarda döyüş təlimi müvafiq direktivin tələbləri əsasında keçirilib, hərbi qulluqçuların komandir, ixtisas, atəş və fiziki hazırlıq səviyyəsinin təkmilləşdirilməsi təmin olunub. Daxili Qoşunların hərbi hissələri və ərazi polis orqanlarının birgə fəaliyyətinin və koordinasiyasının təkmilləşdirilməsi məqsədilə birgə xüsusi-taktiki təlim məşqləri təşkil olunub keçirilib.

Bununla yanaşı, məruzədə 2022-ci il ərzində Daxili Qoşunların şəxsi heyəti ilə tərbiyə işinin təşkilinin və hərbi intizamın vəziyyətinin qənaətbəxş olduğu vurğulanıb. Bildirilib ki, respublikada baş verən ictimai-siyasi hadisələr daim diqqət mərkəzində saxlanılıb, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm dövlət quruculuğu prosesi, dövlətimizin beynəlxalq arenada nüfuzunun artması şəxsi heyət arasında geniş təbliğ edilib. Qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsi, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınması, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılması diqqətdə saxlanılan məsələlərdən olub.



Həmçinin ötən il ərzində Daxili Qoşunlarda maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı tədbirlərin ardıcıllıqla davam etdirilməsi, şəxsi heyətin kazarma-məişət şəraitinin müasir standartlara uyğunlaşdırılması və hərbi qulluqçuların zəruri tələbatlarının təminat normalarına uyğun təmin olunması da diqqətə çatdırılıb.

Daha sonra bir neçə hərbi hissə komandiri və onların müavinlərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə, hərbi hissələr qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələri tam həcmdə yerinə yetiriblər.

Çıxışlardan sonra Daxili qoşunların komandanı növbəti ildə qarşıda duran vəzifələrlə əlaqədar aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib.

Sonda iclasa yekun vuran general-leytenant Ş.Məmmədov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətinin bundan sonra da müəyyən edilmiş vəzifələri, habelə qarşıya qoyulacaq tapşırıqları tam həcmdə və əzmlə yerinə yetirəcəyinə əminliyini ifadə edib, hərbi qulluqçulara fəaliyyətlərində uğurlar arzulayıb.

**Mətbuat xidməti**

## XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARINA GÖRƏ LİDERLİYİ QORUYUB SAXLAYAN BÖLMƏ

Digər hüquq-mühafizə orqanları ilə birlikdə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirən hərbi qulluqçularımızın silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.



16075 saylı hərbi hissənin xüsusi təyinatlıları da qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi fədakarlıq göstərirlər. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir. Hərbi hissə komandiri polkovnik Rəşadət Süleymanov xüsusi təyinatlı dəstənin 2022-ci ilin II yarımili ərzində xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hissə üzrə liderliyi qoruyub saxladığını nəzərə çatdırdı.



Dəstə komandiri mayor Ələsgər Muxtarovun sözlərinə görə, dəstə hər an qarşıya qoyula biləcək qəfləti tapşırıqları uğurla yerinə yetirməyə qadirdir. Vəzifə borclarından irəli gələn tələblərdən danışan dəstə komandiri hava şəraitindən asılı olmayaraq, təlim-məşqlərin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyət təlimlər zamanı qarşıya qoyulmuş tapşırıqları məsuliyyətlə icra edir.





Şəxsi heyətin gündəlik fəaliyyəti Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir.

Dəstənin döyüş hazırlığının yüksəldilməsinin qayğısına qalan xüsusi təyinatlı dəstə komandirinin müavini – qərargah rəisi mayor Fərid Sucayev xidmətini tələblərə uyğun olaraq təşkil edir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının təkmilləşdirilməsində isə dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Rəvan Abışovun əməyi danılmazdır.

Hər birimizə məlumdur ki, hərbi qulluqçuların döyüş hazırlığını şərtləndirən əsas cəhətlərdən biri onların mənəvi-psixoloji durumudur. Belə ki, sözügedən sahədə vacib məsələ ictimai-siyasi hazırlıq məşğələsi və tərbiyə işinin təşkilində şəxsi heyətdə vətənpərvərlik mövzusunda söhbətlərin aparılmasıdır. Eyni zamanda, tərbiyə işinin təşkili istiqamətində fərdi yanaşma prinsipinə üstünlük verən kapitan R.Abışov hərbçilərin xidmətdə və xidmətdən sonrakı fəaliyyətini diqqətdə saxlayır. Onun fikrincə, tabelikdə olanlara qarşı tələbkarlıq və qayğının vəhdəti ilə yanaşı, hər bir hərbçinin psixoloji keyfiyyətlərinin dərindən öyrənilməsi üçün fərdi söhbətlərin aparılması çox önəmlidir.

Əlavə olaraq, şəxsi heyət arasında nümunəvi xidmət edən hərbi qulluqçulardan baş çavuşlar Zahid Axundov, Musa Qədirov, Əhməd Cahangirli üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirir və döyüş təcrübələrini silahdaşları ilə bölüşürlər.

**kapitan Nigar Ağayeva**

## ŞƏXSİ HEYƏT İCTİMAİ QAYDANIN VƏ TƏHLÜKƏSİZLİYİN KEŞİYİNDƏ MƏTİNLİKLƏ DAYANIR

Bu gün 67987 saylı hərbi hissənin şəxsi heyəti ictimai qaydanın və təhlükəsizliyin keşiyində mətinliklə dayanır. Əminliklə qeyd etmək olar ki, nizam-intizamın hökm sürdüyü hərbi hissə qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını tam keyfiyyətlə və yüksək səviyyədə yerinə yetirməyə qadirdir.



Bildiyimiz kimi, 2015-ci il noyabrın 26-da Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmağı, təxribatlar, kütləvi iğtişaşlar, terror aktları törətməyi, bütövlükdə, konstitusiya quruluşunu dəyişdirməklə, şəriət qanunları ilə idarə olunan dini dövlətin yaradılmasını planlaşdıran silahlı cinayətkar dəstənin zərərsizləşdirilməsi üzrə Daxili İşlər Nazirliyi tərəfindən Bakı şəhərinin Nardaran qəsəbəsində xüsusi əməliyyat keçirilib. Vətəndaşlarımızın hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, qanunsuz saxlanılan odlu silahların, partlayıcı maddə və qurğuların yığılması məqsədilə həyata keçirilən tədbirlər nəticəsində qanunazidd hərəkətlərin qarşısı alınıb. Nardaran qəsəbəsində baş vermiş hadisələrlə əlaqədar 67987 saylı hərbi hissə tərəfindən polis orqanları ilə birgə burada əmin-amanlıq təmin edilib və hazırda xidmət davam etdirilməkdədir.




67987 saylı hərbi hissənin fəaliyyəti ilə tanışlıq zamanı Nardaran qəsəbəsində xidmətin təşkili haqqında məlumat toplamaq və fotoçəkiliş aparmaq üçün orada oldum. Qoşun naryadının rəisi, hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri baş leytenant Heydərbaba Məmmədov məlumat verdi ki, polislə birgə hərbi hissənin qoşun naryadının istifadəsinə verilən yeni binada mövcud müasir şərait hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparmaları üçün zəmin yaradır.

O, tabeliyindəki bölmədən xidmətə cəlb olunan hərbi qulluqçularla qəsəbədə ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin olunması üzrə cədvələ əsasən növbəli şəkildə xidmətə çıxdıqlarını bildirdi. Onunla xidmətin necə təşkil edildiyi barədə söhbətləşdik, yaradılan postlarda olduq. Baş leytenant H.Məmmədov məlumat verdi ki, qəsəbə daxilində xidmət həm piyada marşrut üzrə, həm də stasionar postlarda təşkil olunur. Hər bir stasionar postda iki hərbi qulluqçu ilə bir polis əməkdaşı xidmət aparır.

Zabit xidmətin idarə olunması və nəzarətdə saxlanılmasında qoşun naryadı rəisinin köməkçisi baş leytenant Seyidməzahim Zeynalovun fəaliyyətini də qeyd etdi. Baş leytenant S.Zeynalov diqqətə çatdırdı ki, qəsəbədə yaşayan sakinlərin təhlükəsizliyinin təmin olunması üçün xidmət ayıq-sayıq aparılır. Qəsəbəyə giriş-çıxış zamanı vətəndaşların sənədləri yoxlanılır, nəqliyyat vasitələrinə baxış keçirilir, hər hansı şübhəli şəxs və ya əmlak aşkar olunduqda dərhal saxlanılır, aidiyyətı üzrə təhvil verilir.

Qeyd edim ki, Nardaran qəsəbəsində xidmətin təşkili həm hərbi hissə, həm də Daxili Qoşunların Baş İdarəsinin əməliyyat qrupları tərəfindən gündəlik yoxlanılır.

Hərbi hissə komandirinin 1-ci müavini – qərargah rəisi polkovnik Amid Məmmədov Nardaran qəsəbəsində ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xidmətə cəlb olunan bölmələrin hərbi qulluqçularının qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirdiklərini bildirdi.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant Eldar Babayev isə Nardaran qəsəbəsində xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi: “Burada xidmətə intizamlı hərbi qulluqçular seçilir, onlarla gündəlik olaraq təlimat keçirilir, mənəvi-psixoloji durumları öyrənilir, xidmətin təşkili daim nəzarətdə saxlanılır”.

Ümumilikdə, xidmətin düzgün təşkili komandir heyətinin bacarıqlı və səriştəli olmasının təsdiqidir.

**kapitan Xədicə Hacızadə**

3_Layout 1 12.01.2023 18:31 Page 1



# 20 YANVAR TARİXİMİZİN QAN YADDAŞIDIR

20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli azadlıq istəyinin oyanış günüdür. Bu, həm də uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. Bu tarix, eyni zamanda, kimin kim olduğunu sübut edən növbəti bir imtahan idi.



1990-cı il Yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, Dağlıq Qarabağda erməni separatizminin geniş vüsət aldığı 1988-ci ildən başladı. Davam edən gərginliyin qarşısını almaq əvəzinə, SSRİ rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli cinayət törətdi.



1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizliyi Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna fövqəladə vəziyyət elan edilmədən yeridilərək, dinc əhaliyə divan tutuldu, yüzlərlə insan qətlə yetirildi, yaralandı, itkin düşdü. Sovet ordusunun və Daxili Qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edildi.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək 82 nəfər amansızcasına qətlə yetirildi, 20 nəfər ölümcül yaralandı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə təkcə Bakı şəhərində 21 nəfər, yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər öldürüldü.

Ümumilikdə, Bakıda və respublikanın rayonlarında 131 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz olaraq həbs edildi. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili tibbi yardım işçiləri və milis nəfərləri də var idi.

Faciədən dərhal sonra - 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, doğma xalqı ilə həmrəy olduğunu göstərdi, SSRİ rəhbərliyinin bu qanlı hadisələrə gətirib çıxaran fəaliyyətinə kəskin etirazını bildirdi və hərbi əməliyyata rəhbərlik edənləri ifşa etdi. Ulu Öndər baş vermiş hadisələrin hüquqa, demokratiyaya, humanizmə və hüquqi dövlət quruculuğu prinsiplərinə zidd olduğunu, faciəni Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirərək, qırğını törədənlərin hamısının layiqincə cəzalandırılması yönündə tədbirlər görülməsinin vacibliyini söylədi.

20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı hərbi təcavüz, eyni zamanda, böyük bir cinayət idi. Faciə ümumxalq hüznünə çevrilsə də, bununla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini bütün dünyaya nümayiş etdirdi. Sovet ordusunun bütün amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın mərkəzi meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar izdihamlı matəm yürüşü keçirdi.






Haqq-ədalətin müdafiəsini, öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək, Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar.

Xalqımız bütün şəhidlərin xatirəsini əziz tutur. Qəhrəmanlıq tariximizdə silinməz izlər qoyan şəhidlərimiz qəlbimizdə əbədi yaşayacaqlar!

**kapitan Xədicə Hacızadə**

---

*Şəhidlərimiz*

# ZƏFƏRƏ APARAN KEŞMƏKEŞLİ YOLLARDAN ELSEVƏR ADLI CƏNGAVƏR KEÇDİ...

44 gün davam edən və erməni işğalçıları üzərində şanlı qələbəmizlə başa çatan Vətən müharibəsi haqqında hərbi mütəxəssislər, tarixçilər, yazıçılar, jurnalistlər uzun illər araşdırmalar aparacaq, bu mövzunu davamlı olaraq işıqlandıracaqlar. Silahlı Qüvvələrimizin Vətən müharibəsində keçdiyi döyüş yolu qəhrəmanlıq salnaməsidir. Vahid komandanlıq altında döyüşən, ruh yüksəkliyinə, vətənpərvərlik əqidəsinə, öz xalqının mənəvi dəstəyinə, peşəkarlığa, müasir silahlara malik rəşadətli ordumuzun qarşısında təcavüzkar erməni ordusunun məğlubiyyəti qaçılmaz idi. Bu müharibə bütün beynəlxalq aləmə bir daha onu göstərdi ki, azərbaycanlılar öz torpağında məcburi köçkünlük taleyi ilə barışan, şəhidlərin qanını yerdə qoyan, düşməndən qisas almağı qiyamətə saxlayan xalq deyil.

Zəfər şəhidlərimizin adları arasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları da ehtiramla anılır. Onlardan biri çavuş Piriyev Elsevər Mahir oğludur. Şəhid hərbi qulluqçumuzun mənalı ömür yolu barədə ailəsindən və silahdaşlarından maraqlı məlumatlar topladım.

O, 1995-ci il iyunun 12-də Ağcabədi rayonunun Arasbar kəndində (bəzi sənədli mənbələrdə kəndin adı Arazbar kimi yazılıb) anadan olub. Mahir Piriyev və Yeganə Piriyevanın ortancıl övladı olan Elsevərin Nərminə, Aytac adlı bacıları var. Əməksevər, doğma torpağa bağlı, halal zəhməti ilə güzəranını quran ailədə böyüyərək tərbiyə almış Elsevər el-oba arasında ədəb-ərkanı, böyüklərə hörməti, xeyirxahlığı, cəsarəti ilə seçilib. Valideynlərinin bildirdiklərinə görə, o, ailəcanlı, hamı ilə mehriban davranan, dostluqda etibarlı, yalana qarşı barışmaz, sözünün üstündə duran, ehtiyacı olana köməyini əsirgəməyən gənc idi.

Elsevər şəhid Cavanşir Həsənov adına Arasbar kənd ümumi orta məktəbi və şəhid Akif Sultanov adına Kürdlər kənd tam orta məktəbində təhsil alıb. Orta məktəbdə oxuduğu dövrdə Azərbaycan dili, riyaziyyat, çağırışaqədərki hazırlıq fənlərinə maraq göstərib, yeniyetmə yaşlarından hərbçi peşəsinə rəğbət bəsləyib, müəllimlərinə və yoldaşlarına kəşfiyyatçı olmaq arzusunu söyləyib. İdmana həvəslə yanaşıb, fiziki hazırlığına daim diqqət yetirib.

2013-cü ilin iyul ayında Elsevər müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25031 saylı hərbi hissəsində xidmət keçib. Nümunəvi xidməti ilə dövlətimiz qarşısında öz borcunu vicdanla yerinə yetirdiyi nəzərə alınaraq, müddətdən artıq həqiqi hərbi xidmətə keçirilməsi barədə müraciəti müsbət cavablandırılıb. Bununla əlaqədar valideynləri ilə məsləhətləşib, onların xeyir-duasını alıb. Beləliklə, 2015-ci ilin yanvar ayından etibarən Elsevər öz arzusu ilə Daxili Qoşunların sıralarında hərbi xidmətini davam etdirib. 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin



xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunun atıcısı, sonra isə orada xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunun heyət nəfəri vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub. Hərbi xidməti dövründə yüksək döyüş və mənəvi-psixoloji hazırlığı, intizamı, icraçılığı, təlimlərdə əzmkarlığı, qarşıya çıxan çətinlikləri dəf etmək bacarığı, səliqə-sahmanı ilə fərqlənib. Komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanıb.

Vətən müharibəsi iştirakçısı, 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri, 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri olmuş polkovnik-leytenant Zaur Rəhimov Elsevər haqqında öz xatirələrini danışdı. Bildirdi ki, tabeliyində xidmət etmiş və rəhbərliyi altında döyüş yolu keçmiş Elsevər hərbi anda sadiq, vətənpərvər, iradəli və qətiyyətli xüsusi təyinatlı olub, şəxsi ləyaqətini, hərbçi şərəfini uca tutub. Peşəkar hərbi qulluqçu olaraq daim öz üzərində çalışıb. Fiziki hazırlıq üzrə məharəti, sərrast atəşaçma qabiliyyəti ilə seçilib. Məlumat verdi ki, Gürcüstanla sərhəddə qonşu ölkənin bir qrup vətəndaşı tərəfindən təxribat törədilməsinin qarşısının alınması, Gəncədə məlum hadisələr zamanı ictimai qaydanın bərpası, bundan əlavə, koronavirus pandemiyası ilə bağlı karantin rejiminin təmin edilməsi üzrə qarşıya qoyulan tapşırıqları Elsevər layiqincə yerinə yetirib.

Dəstə komandirinin sözlərinə görə, Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin taktiki təlimlərinə onun rəhbərliyi altında qatılan heyətin tərkibində Elsevər də olub. Bu təlimlər yeni döyüş vərdişlərinə yiyələnmək baxımından xüsusi rol oynayıb.

Polkovnik-leytenant Z.Rəhimov qeyd etdi ki, Vətən müharibəsi zamanı onun tabeliyindəki şəxsi heyət Müdafiə Nazirliyinin, habelə qoşunların ayrı-ayrı hərbi hissələrinin xüsusi təyinatlıları ilə birlikdə ön cəbhənin müxtəlif istiqamətlərində düşmənə qarşı döyüşüb. Elsevər Kəlbəcər, Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində döyüş əməliyyatlarında iştirak edib: “O, ön cəbhədə daim irəlidə idi. Ən çətin və təhlükəli istiqamətlərdə qorxmadan düşmənin üzərinə atılır, cəsurluğu ilə yoldaşlarını da ruhlandırırdı. İşğalçıların məhv edilməsi, mövqelərinin ələ keçirilməsində göstərdiyi şücaətlər həmişə xatırlanacaq.

Oktyabrın 15-16-da Xocavənd rayonunun Hadrut qəsəbəsi ətrafında şiddətli döyüşlər olub. Hadrutdan Şuşa və Xankəndiyə gedən yolun üstündə olan yüksəkliklərdən ermənilər qəsəbənin içərisində hərəkət edən canlı qüvvə və texnikamızı müxtəlif çaplı silahlardan atəşə tuturdular. Həmçinin yolu bağlamışdılar. Tapşırıq verildi ki, sözügedən yüksəkliklərdəki mövqelər ələ keçirilsin. Meşə və sıx kollarla əhatə olunmuş ərazi ilə irəliləyirdik. Oktyabrın 15-də Hadruta yaxın yüksəkliklərdən birinə hücum zamanı Elsevər ağır yaralanaraq şəhadətə ucaldı. Biz həmin və digər yüksəklikləri düşməndən azad etdikdən, bu istiqamətdə mövqelərimizi möhkəmləndirdikdən bir neçə gün sonra ərazidə axtarış apararaq şəhidlərin nəşlərini tapdıq. Bəzi şəhidlərin nəşləri tanınmaz vəziyyətdə idi. Tapılan nəşlərin yaxınlıqdakı yolun qırağına daşınmasını təşkil etdik. Təxliyyə qruplarına koordinatları ötürdük. Ötürülən koordinatlar əsasında təxliyyənin təşkili onların üzərinə düşüb”.

Vətən müharibəsi iştirakçısı, 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Yasin Qasımov da Elsevər barədə suallarımı cavablandırdı: “Elsevər xüsusi vasitələrin tətbiqi dəstəsindən seçilərək xüsusi təyinatlı dəstəyə keçirilmişdi. Dəstədə eyni yarımqrupda xidmət etmişik. Onun komandiri kimi, verdiyim tapşırıqları vicdanla yerinə yetirib. Təlimlərdə fəallıq göstərib, bilik və bacarıqlarını artırıb. Hərbi kollektivdə nüfuzu vardı.

Vətən müharibəsi zamanı “K” taboruna aid qrupun tərkibində döyüşlərə başlamışıq. Qrup komandirimiz baş leytenant Aslan İsmayılov şəhidlik zirvəsinə ucaldı.

Murovdağ silsiləsinin Ömər aşırımı, Kəlbəcər rayonunun Susuzluq kəndi istiqamətlərində döyüş tapşırıqlarını yerinə yetirərkən Elsevər mərdlik nümayiş etdirib. Onun silahı 5,45 mm çaplı avtomat idi, mənə isə həm avtomat, həm də barabanlı qumbaraatan təhkim olunmuşdu. Elsevər mən yorulanda silahın birini götürərək köməyini əsirgəmirdi. İstənilən döyüş şəraitində ona güvənirdim, əmin idim ki, heç kəsi darda qoymaz. Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində döyüşlər zamanı qısa məsafədən düşmənin kiçik qruplarını məhv etmişik. Oktyabrın 5-də Cəbrayıl istiqamətində pusquya düşdük. Elsevər tüstü şaşkasını ataraq ərazidə tüstü örtüyü yaratdı, bu da döyüşçülərin təhlükəli vəziyyət-



dən çıxmasına imkan verdi. Hadrutda çətin tapşırıqları yerinə yetirdik. Düşmənin hərbi hissəsinin, iriçaplı silahlarının koordinatlarını artilleriyamıza ötürdük. Orada ermənilərə məxsus piyadanın döyüş maşınının heyətini məhv etdik, onların yaxınlığında pusqu qurduq, köməyə gələn işğalçıları partlatdıq. Hadrutdakı hərbi hissəyə hücum etdik və içəridəki erməni patrulları həmləmiz nəticəsində tələfata uğradılar. Sonrakı günlərdə Hadrut ətrafındakı yüksəkliklər uğrunda döyüşlərə qatıldıq. Hadrutla Tuğ kəndi arasındakı yüksəklikdə mövqelənmiş düşmənin arxasına gizli olaraq sızdıq, ermənilərin postlarına yaxınlaşaraq gözləmədikləri istiqamətdən həmlələr etdikdə çaşbaş qalmışdılar. Yaxın məsafəli döyüşlərdən birində düşmən pulemyotçusu tabor komandirinin üzərinə əl qumbarası atdı, o yaralandı, Elsevər pulemyotçunu məhv etdi, pulemyotçunun köməkçisi isə olduğu mövqedən çıxaraq qaçmağa başladı. Elsevərlə qarşılaşdıqda hər ikisi eyni anda atəş açdı. İşğalçının açdığı atəş nəticəsində güllə Elsevərin sağ boyun nahiyəsini dələrək şahdamarı zədələmişdi, silahdaşımız yerindəcə şəhid oldu, erməni hərbçisi yaralansa da sağ idi, başından atəş açaraq onu öldürdüm. Elsevərin şəhadətə ucaldığı tarix oktyabrın 15-dir. Son nəfəsinədək mətinliklə vuruşdu”.

Ehtiyatda olan çavuş, Vətən müharibəsi iştirakçısı İdris Şahmalıyev də Elsevərlə birgə xidmət edib və döyüş yolu keçib. Müharibədə silahdaşının əsl fədakarlığının şahidi olduğunu vurğuladı. Qələbə sevincini yaşamağı arzuladığını söylədi. Şəhid olduqdan sonra nəşinin morqda gec tapıldığını dedi. Bu səbəbdən gec dəfn edilən şəhidlərdən biridir. İdris yoldaşları üçün həyatda Elsevərin yerinin göründüyünü bildirdi. Redaksiyamıza şəhidin hərbi xidmətə aid maraqlı şəkillərini təqdim etdiyinə görə İdrisə minnətdaram.

Gəncə şəhərinin Nizami Rayon Qeydiyyat Şöbəsi tərəfindən tərtib edilən 11 dekabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə çavuş E.Piriyevin 2020-ci il oktyabrın 15-də Xocavənd rayonunda hərbi əməliyyat nəticəsində odlu silahla və digər adi silah növləri ilə törədilmiş zədələnmələr səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhid hərbi qulluqçumuzun nəşi 2020-ci il dekabrın 10-da ailəsinə gətirilib və həmin tarixdə Arasbar kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15, 24, 25 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş E.Piriyev ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

Arasbar kənd ümumi orta məktəbinin qarşısında şəhidin abidəsi ucaldılıb, ailəsinin yaşadığı evin yerləşdiyi küçə Elsevərin adını daşıyır. Evdə xatirə guşəsi yaradılıb.

Sevindik Nəsiboğlunun “Möhtəşəm zəfərin nişanəsi” və Tahir Rzayevin “Vətənin ölməz oğulları. Ağcabədi şəhidləri” kitablarında, “Kredo” qəzetində Elsevərin ömür yolu işıqlandırılıb. Müxtəlif televiziya kanalları tərəfindən şəhidə həsr olunan süjetlər hazırlanıb.

Arasbar kəndinin iki şəhidi var, digər şəhid Ceyhun Hüseynovdur.

Elsevər Əfsanə xanımla ailə qurmuşdu, iki oğul övladı yadigar qalıb, onlara Uğur və Ümid adlarını qoyub. Uğur və Ümid bu igid ocağının davamçılarıdır.

Məqaləni Qabil Ədalətin “Şəhidlər” şeirindən iki misra ilə bitirirəm:

**Adın tarixlərə yazdı şəhidlər,**
**Haqqın dərgahına qalxdı şəhidlər!**

**Yalçın Abbasov**

4_Layout 1 13.01.2023 10:03 Page 1



# ŞƏXSİ HEYƏT QARŞIYA QOYULAN TAPŞIRIQLARI LAYİQİNCƏ YERİNƏ YETİRMƏK ÜÇÜN ƏZMLƏ ÇALIŞIR

Bu gün ölkəmizdə ictimai qaydanın qorunub saxlanılması və ictimai təhlükəsizliyin təmin edilməsində Daxili Qoşunların xüsusi rolu var. Qoşunların qarşısına qoyulmuş tapşırıqların istər paytaxtda, istərsə də regionlarda uğurla həyata keçirilməsi bunu deməyə əsas verir.

17071 saylı hərbi hissədə xidməti ezamiyyətdə olduğum zaman ayrı yerləşən patrul taborunun xidməti fəaliyyətilə də tanış oldum. Bu tabor yüksək





döyüş hazırlığı, o cümlədən nümunəvi hərbi intizam nümayiş etdirərək, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Bütün bunlar şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı barədə müsbət təsəvvür yaradır, eyni zamanda, rəhbər sənədlərin tələblərinin mükəmməl öyrənilməsi, habelə düzgün icrasından xəbər verir.

Ayrı yerləşən patrul taborunun komandiri polkovnik-leytenant Bəxtiyar Behbudov şəxsi heyətin layiqli xidmət aparması üçün hər bir şəraitin mövcud olduğunu bildirdi. Hərbi qulluqçularda müşahidə olunan yüksək döyüş hazırlığı və möhkəm hərbi intizam taborun qarşıya qoyulmuş tapşırıqları yerinə yetirməyə hər an hazır olduğunu deməyə əsas verir. Tabor komandiri qeyd etdi ki, hər kəs üzərinə düşən məsuliyyəti doğru-düzgün anlayanda yüksək nizam-intizam formalaşır ki, bu da artıq bölmələrin döyüş hazırlığına birbaşa təsir göstərir. Polkovnik-leytenant B.Behbudov mənəvi-psixoloji durumu yüksək olan hərbi qulluqçuların məşğələlərdə daha fəal iştirak etdiklərini, eyni zamanda, bilik və bacarıqlarının artırılması istiqamətində səylə çalışdıqlarını diqqətə çatdırdı.





Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması istiqamətində görülən işlər barədə tabor komandirinin 1-ci müavini-qərargah rəisi mayor Valeh İbrahimov məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların fiziki hazırlığı diqqət mərkəzində saxlanılır. Bütün idman tədbirləri vaxtında, eyni zamanda, müvafiq təlimata uyğun keçirilir, bu da müsbət nəticələrin əldə olunmasına imkan verir.

Qərargah rəisi bununla yanaşı, şəxsi heyətin atəş hazırlığının da mühüm əhəmiyyət kəsb etdiyini söylədi. İl ərzində döyüş təliminin keyfiyyətinin artırılmasına nail olunduğunu deyən mayor V.İbrahimov görülən işlərdə xüsusi təyinatlı qrupun komandiri baş leytenant Əli Ağayev, xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri baş leytenant Məhəmməd Hüseynov, təminat bölüyünün komandirinin vəzifələrini icra edən leytenant Bəhərçi Mehdiyev və komendant taqımının komandiri leytenant Elşən Rəhimovun xidmətlərini müsbət qiymətləndirdi. Onun sözlərinə görə, bölmə komandirləri məşğələlərin tam və keyfiyyətlə keçirilməsi məqsədilə tədris prosesini ciddi nəzarətdə saxlayırlar.

Taborun komandanlığı tərəfindən diqqət mərkəzində saxlanılan istiqamətlərdən biri də bölmələrin təyinatları üzrə vəzifələrini yerinə yetirmələri, o cümlədən şəxsi heyətin gündəlik xidməti-döyüş fəaliyyətidir. Komendant taqımının qüsursuz xidməti, nəzarət-buraxılış məntəqəsində şəxsi heyətin, avtomobillərin giriş-çıxışının düzgün tənzimlənməsi, tabor növbətçisi və köməkçisinin günün nizam qaydalarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsinə ciddi nəzarət etməsi bunun əyani sübutudur.

Ümumilikdə, şəxsi heyət xidmət zamanı hərbçilərə xas olan bütün xüsusiyyətləri özündə cəmləşdirir, qarşıya qoyulan tapşırıqların icrası zamanı əzmkarlıq nümayiş etdirir. Funksional vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçulardan gizir Coşqun Əhmədov, baş çavuş Mahal Qasımov, əsgər Məhəbbət Rzayevin adlarını çəkə bilərik.

**kapitan Şahin Cəfərzadə**

# TEXNİKANIN SAZLIĞINI TƏMİN ETMƏK BAZANIN ƏSAS VƏZİFƏSİDİR

Əsas vəzifəsi Daxili Qoşunların balansındakı nəqliyyat vasitələrinin təmirinin həyata keçirilməsi olan Avtomobil və zirehli texnika təmiri bazası yarandığı vaxtdan bugünədək uğurlu fəaliyyət göstərir. Hərbi hissələrdə istismar müddəti başa çatmış, ləğv olunması və sökülməsi barədə qərar verilmiş nəqliyyat vasitələrinin, eləcə də onların hissə, mexanizm və aqreqatlarının saf-çürük edilməsində də baza yaxından iştirak edir.



Bundan əlavə, təmir işlərinin texnoloji cəhətdən düzgün aparılması, bu zaman qabaqcıl təcrübədən istifadə edilməsi, təhlükəsizlik qaydalarına ciddi riayət olunması şəxsi heyətin qarşısına qoyulan mühüm vəzifələrdəndir.

Avtomobil və zirehli texnika təmiri bazasının rəisi kapitan Vasif Ələsgərov bildirdi ki, bazanın şəxsi heyəti üzərinə düşən vəzifələri məsuliyyətlə icra edir, təmir üçün bazaya daxil olan nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün tədbirlər görür. 2022-ci ilin aprel ayından hazırkı vəzifəni icra edən kapitan V.Ələsgərov əlavə etdi ki, təmirə ehtiyacı olan nəqliyyat vasitələri hərbi hissələrin nümayəndələri tərəfindən bazaya təhvil verilir və nəzərdə tutulmuş texniki şərtlərə əsasən qəbul edilir. Burada daxili qayda-qanuna, müəyyən edilmiş iş rejiminə ciddi riayət olunur. Şəxsi heyətin nizam-intizamının möhkəmləndirilməsi və döyüş hazırlığının yüksəldilməsi yönündə müntəzəm olaraq tədbirlər görülür. Görülən tədbirlər Daxili Qoşunların komandanlığı tərəfindən hər zaman diqqət mərkəzində saxlanılır.





Qeyd edək ki, 44 gün davam edən Vətən müharibəsində də təmir bazası öz təyinatı üzrə vəzifələri peşəkarcasına yerinə yetirib. Məlumdur ki, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi döyüş hazırlığının yüksək olması ilə yanaşı, şəxsi heyətin, silah-sursatın və digər növ təchizatın əməliyyat rayonuna təhlükəsiz, eləcə də vaxtında çatdırılmasından birbaşa asılıdır. Bu baxımdan avtomobillərin və zirehli texnikaların saz vəziyyətdə saxlanılması, zədələnmiş avtomobillərin dərhal təmiri mühüm əhəmiyyət kəsb edir. Avtomobil və zirehli texnika təmiri bazası bu işin öhdəsindən bacarıqla gəlib.

Vətən müharibəsində avtomobillərin sazlığını hər an yüksək səviyyədə saxlamaq, yarana biləcək nasazlığın dərhal aradan qaldırılması məqsədilə şəxsi heyət, silah-sursat və təminat aparan karvanlarda Daxili Qoşunların Baş İdarəsinin avtomobil və zirehli texnika şöbəsinin zabitləri və təmir bazasının hərbi qulluqçuları olublar. Kapitan V.Ələsgərovla yanaşı, gizir Tural Vəliyev və baş çavuş Polad Əsədovun da müharibə zamanı zədələnmiş avtomobillərin dərhal təmir olunmasında əməyi təqdirəlayiqdir. Öz işinin peşəkarı olan və nəqliyyat vasitələrinin texniki xüsusiyyətlərini yaxşı bilən hərbi qulluqçularımızın iş təcrübəsi döyüş meydanında onların köməyinə yetib.

2020-ci ilin sentyabr-noyabr aylarında davam etmiş Vətən müharibəsi zamanı hərbçilərimiz düşmənin xeyli sayda texnikasını ələ keçiriblər. Düşmənin məhv edilən, eləcə də ərazidə qalan hərbi texnikaları, əsasən "Ural", UAZ markalı minik avtomobilləri hərbi qənimət kimi götürülərək, 25032 saylı hərbi hissəyə və təmir bazasına aparılıb, orada təmir işləri görülüb, xarici görünüşləri qaydaya salınaraq yenidən istifadəyə hazırlanıb. Təmir bazasından 25032 saylı hərbi hissəyə ezam olunan baş çavuş Emil Kamilov bunun üçün səylə çalışıb.

Bazada anbar rəisi gizir Əli Rəhimov, emalatxana rəisi baş çavuş Cəmaləddin Orucov, mülki işçi-çilingər Elşad Ağayev çalışqanlığı və icraçılığı ilə seçilir, funksional vəzifələrinə məsuliyyətlə yanaşırlar.

**kapitan Xədicə Hacızadə**

*NÜMUNƏVİ XİDMƏT*

# VƏZİFƏSİNİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLƏN QADIN HƏRBİ QULLUQÇU

Daxili Qoşunların sıralarında savadı, bacarığı və xidmətə vicdanlı münasibətilə seçilən kişi hərbi qulluqçularla yanaşı, onlarla çiyin-çiyinə ləyaqətlə xidmət aparan qadın hərbi qulluqçularımız da çoxdur. Mətbuat xidməti olaraq vaxtaşırı "Əsgər" qəzetinin səhifələrində biz onlar haqqında materialları oxucularımıza təqdim edirik.



Bu dəfə haqqında söz açacağımız qadın hərbi qulluqçu Daxili Qoşunların 16075 saylı hərbi hissəsində xidmət edən gizir Ayşə Babayevadır. O, 1991-ci il iyulun 24-də Sumqayıt şəhərində anadan olub. 1998-2009-cu illərdə Sumqayıt şəhərindəki 9 saylı tam orta məktəbdə təhsil alıb. 2009-cu ildə Azərbaycan Müəllimlər Universitetinin tarix-coğrafiya fakültəsinə qəbul edilib. Ali təhsilini 2013-cü ildə uğurla başa vuran gənc qızda hələ tələbəlik illərindən məsuliyyət və ciddiyyət kimi hisslər formalaşmışdı. Hərbi xidmətə olan marağı isə hələ orta məktəb illərindən özünü büruzə verib.

Elə bu maraq 2015-ci ildə onu Daxili Qoşunların Baş İdarəsinə gətirib çıxarıb. Həqiqi hərbi xidmətə qəbul olunmaq üçün müraciət edən Ayşə bir müddət sonra komandanlıqdan müsbət cavab alaraq Daxili Qoşunların 16075 saylı hərbi hissəsində xidmətə başlayıb. Hazırda həmin hərbi hissənin qərargahında məsul icraçı-texnik (kargüzarlıq üzrə) vəzifəsindədir.

Gizir A.Babayeva hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur, funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşır. O, qeyri-məxfi kargüzarlığın müvafiq əmrlərə, təlimatlara və digər rəhbər sənədlərə əsasən təşkil edilməsinə, kargüzarlığın qarşısında qoyulmuş tapşırıqların vaxtında, keyfiyyətlə yerinə yetirilməsinə cavabdehdir. Kargüzarlığın düzgün təşkili və aparılması, daxil olan xidməti sənədlərin komandanlığa məruzə edilməsi, icraya verilməsi, icraçılar tərəfindən sənədlərin saxlanılması, onlardan istifadə və eləcə də vaxtlı-vaxtında qaytarılmasına nəzarət gizir A.Babayevanın funksional vəzifələridir.

Xidmətdə məsuliyyətli, kollektivdə mehriban olan gizir A.Babayeva düşünür ki, hər bir Azərbaycan vətəndaşı harada olmasından asılı olmayaraq, Vətənə olan bağlılığını göstərərək, öz vəzifələri çərçivəsində vicdanla xidmət etməyi bacarmalıdır.

**kapitan Nigar Ağayeva**

# RABİTƏÇİ KİMİ PEŞƏ HAZIRLIĞINDA ƏZMKARDIR

17071 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımı komandirinin müavini-avtomatik telefon stansiyasının rəisi baş çavuş Sənan Bayramov 1997-ci ilin dekabr ayının 8-də Qəbələ rayonunun Böyük Pirəli kəndində anadan olub. 2015-ci ildə anadan olduğu kənddə yerləşən tam orta məktəbi bitirib. 2016-cı ilin yanvar ayında müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarına qəbul olunub. 25032 saylı hərbi hissədə kiçik mütəxəssislər hazırlayan tədris bölüyündə rabitə kursunu müvəffəqiyyətlə bitirdikdən sonra xidmətini davam etdirmək üçün 99713 saylı hərbi hissəyə göndərilib. 2017-ci ilin iyul ayında xidmət müddəti başa çatdığı üçün ehtiyata buraxılan Sənan həmin ilin sentyabr ayında Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunaraq hal-hazırda xidmət etdiyi vəzifəyə təyin edilib.



Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz ona verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirir. Müvafiq normativ sənədlərdə tələb edilən keyfiyyətdə, fasiləsiz və dayanıqlı rabitə əlaqəsini, rabitə vasitələrinin sazlığını və təmirini, aparatların və rabitə kabellərinin istismarının texniki normada olmasını təmin etmək baş çavuş S.Bayramovun funksional vəzifələridir. O, məxfilik rejiminə və rabitənin təhlükəsizlik tədbirləri üzrə tələblərinə ciddi riayət edir, rabitə döyüş postunda daxili səliqə-sahmanı qoruyub saxlayır.

Daxili Qoşunlarda xidmətilə fəxr edən baş çavuş S.Bayramov hər bir gəncin Vətənə olan borcunu layiqincə qaytarmasının, komandirlər tərəfindən qoyulan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinin vacibliyini vurğuladı, bölmədə rabitəçilərin peşə hazırlığına diqqətin artırıldığını söylədi.

**17071 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR -

### Türkiyənin ilk aviadaşıyıcı gəmisi bu ilin ilk aylarında istifadəyə verilə bilər

Türkiyənin ilk aviadaşıyıcı gəmisi "Anadolu"nun bu ilin ilk aylarında istifadəyə verilməsi planlaşdırılır. Ordu.az xəbər verir ki, bu barədə Türkiyə milli müdafiə naziri Hulusi Akar gəmini ziyarət edərkən bildirib.

O qeyd edib ki, gəmiyə ilk dəfə 17 noyabr 2022-ci ildə helikopter eniş edib.



Xatırladaq ki, "Anadolu" gövdəsində silahlı PUA daşıyacaq dünyanın ilk gəmisidir.

## Allah rəhmət eləsin

12318 saylı hərbi hissənin komandanlığı kapitan Şahin Şirinova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin komandanlığı gizir Kamil İbrahimova **övladının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**